# Üzeyir bəy Hacıbəyli publisistikasında milli ruh

## *(140 illiklə bağlı tələbə tədqiqatı)*

**Azərbaycan xalqının mətbuat və mədəniyyət tarixinə adı əbədi həkk olunmuş dahi şəxsiyyətlərdən biri də Üzeyir bəy Hacıbəylidir. Bu böyük şəxsiyyətin adı milli musiqimizlə yanaşı publisistikamızın, maarifçiliyimizin və milli ideologiyamızın formalaşma tarixində də böyük hörmətlə çəkilir. Bu il xalqımız bu böyük şəxsiyyətin anadan olmasının 140 illiyini qeyd edir. Bu yubiley yalnız musiqimizi əhatə etmir, həm də milli özünüdərk, mədəniyyət və maarifçilik bayramıdır.**

Üzeyir bəy Hacıbəylinin fəaliyyəti çoxşaxəlidir. Onun publisistik irsi bu gün də həm elmi, həm də tarixi baxımdan aktuallığını qorumaqdadır. Ədibin o dövrdə yazdığı publisistik məqalələr təkcə gündəlik ictimai-siyasi problemləri işıqlandırmaqla kifayətlənməyib, həm də milli şüurun formalaşmasına və xalqın maariflənməsinə xidmət edib.

Milli operamızın banisi Üzeyir bəy 20-ci əsrin əvvəllərində Azərbaycanda çap olunan "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni İqbal" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında müxtəlif səpkili məqalələr, publisistik yazılar çap edib. Bu böyük azərbaycanlının məqalələrində satirik üslub xüsusi yer tutur. "Ordan-burdan", "O yan-bu yan" kimi rubrikalar altında çap olunan yazıları xalq arasında böyük maraqla qarşılanıb. Bu yazılarda o, cəmiyyətdəki haqsızlıqları, nadanlığı, geriliyi ifşa edir, insanları maarifə və tərəqqiyə səsləyirdi. Hətta bəzi məqalələrində təxəllüslərdən də istifadə edib. Bununla o, bir tərəfdən sətiraltı ifadələrlə həqiqətləri qələmə alıb senzuranı aldadır, digər tərəfdən isə oxucu ilə daha səmimi ünsiyyət qurmağı bacarırdı. Xüsusilə 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə onun publisistik fəaliyyəti olduqca zəngin və rəngarəngdir. "Azərbaycan" qəzetində redaktor və müxbir kimi çalışması, demək olar ki, mətbuatda gündəlik məqalələrlə çıxış etməsi o dövrün ictimai-siyasi həyatını, tarixini öyrənmək baxımından da mühüm əhəmiyyət daşıyır. Publisistin həmin dövrdə yazdığı məqalələr təkcə jurnalist yazısı deyil, həm də siyasi mübarizə metodu və vasitəsi idi. Onun "Bir yaş", "Müstəqilliyimiz", "Qurtuluşumuz üçün", "Milli dirilik" kimi yazıları xalqın istiqlal duyğularını gücləndirmək məqsədi daşıyırdı. Bu məqalələrdən aydın görünür ki, Üzeyir bəy Hacıbəyli publisistikanı milli idealların ifadəsi üçün bir vasitə kimi görürdü. Qeyd edək ki, bir çox mütərəqqi ziyalılar kimi Üzeyir bəyin publisistikasında da ana dili məsələləri mühüm yer tutur. Ana dilinin saflığı, onun qorunması və inkişaf etdirilməsi barədə yazıları xalq arasında milli şüur və özünüdərk prosesini gücləndirirdi. Bu çoxsaylı yazılar Üzeyir bəyin milli kimliyə bağlılığını açıq şəkildə göstərir.

Maarifçiliyi yalnız bir nəzəri fikir kimi deyil, həyati zərurət kimi təqdim edən Üzeyir bəyin publisistikasında satira və yumor da geniş yer tutur. İnsanı güldürən və düşündürən felyetonları dərin mətləbləri ortaya qoyur. O, xalqın gündəlik problemlərini sadə, hamının başa düşəcəyi dildə izah edir, bir növ oxucu ilə dialoq qururdu. Ü.Hacıbəylinin publisistik irsində ən çox diqqət çəkən cəhət isə onun mübarizliyi və prinsipiallığıdır. Cəmiyyətin daxili xəyanətlərini, passivliyi, biganəliyi qətiyyətlə tənqid edən ustad qələm sahibinin "İçimizdəki Denikinlər" mövzusunda yazdığı məqalələrdə bu məsələ daha aydın görünür. Burada müəllif sanki xalqı oyatmaq, biganəlikdən çıxarmaq istəyirdi. Ədibin sadə, təmiz ana dilindən istifadəsi və bəhrələnməsi oxucuya birbaşa müraciətə imkan verirdi. O, yazılarında gəncləri elmə, təhsilə, milli özünüdərkə və inkişafa çağırırdı. Üzeyir bəy ana dilində məktəblərin açılmasını, pedaqoji üsulların modernləşdirilməsini, savadlı gənclərin formalaşmasını vurğulayan epizodlarla publisistik yazılarını dolğunlaşdırırdı. Ü.Hacıbəylinin publisistik irsi uzun müddət yalnız dövrünün mətbuatında çap olunan məqalələri ilə tanınıb. Lakin son araşdırmalar göstərir ki, bu ustad qələm sahibinin ictimai-siyasi və mədəni məsələlərə dair çoxsaylı qeydləri, məktubları və müxtəlif auditoriyalara ünvanlanan çıxışları nəşrlərdən kənarda qalıb. Yeni-yeni işıq üzü görən bu yazılar Üzeyir bəyin publisist düşüncəsini daha dərindən anlamaq üçün mühüm mənbədir. Araşdırmalardan əldə olunan nəticə onu deməyə əsas verir ki, Ü.Hacıbəylinin məktublarında və şəxsi qeydlərində də publisistik ruh güclüdür. O, öz yaxınlarına və həmkarlarına ünvanladığı məktublarda xalqın maariflənməsindən, milli mədəniyyətin inkişafından, milli özünüdərkdən və təhsilin vacibliyindən dönə-dönə bəhs edir. Bu yazılar bir publisist kimi onun yalnız mətbuat üçün deyil, həm də cəmiyyətdə ictimai məsuliyyət daşıdığını göstərir. Məktublar və qeydlərdəki fikir ardıcıllığı, aktual məsələlərə toxunuş tərzi qəzet məqalələrindən heç də fərqlənmir. Nəşrlərdən kənarda qalan digər bir məsələ müxtəlif tədbirlərdə söylədiyi çıxış mətnləridir. Məsələn, musiqi məktəblərinin açılışı, teatr tamaşalarının təqdimatı və mədəni tədbirlərdəki nitqləri publisistik məzmun daşıyır. Üzeyir bəy çıxışlarını yazılı şəkildə də hazırlasa da, onların hamısını çap etdirməyib. 20-ci əsrin sonlarında bəzi araşdırmaçıların tapdığı bu nitqlər Hacıbəylinin publisistik irsinin miqyasını daha da genişləndirir. Təəssüf ki, bu böyük mədəniyyət xadiminin, təpədən dırnağadək azərbaycanlı türk oğlunun çoxsaylı məqalələri, çıxışları və qeydləri uzun müddət ya ümumiyyətlə nəşr olunmayıb, ya da senzura və digər səbəblərlə ixtisar olunmuş şəkildə oxuculara çatdırılıb.




BDU-nun müəllimi, mətbuat tarixçisi Aygün Əzimova belə bir faktı ortaya qoyur ki, Sovet dövrünün qadağaları və senzurası, dövrün sərt mexanizmi imkan vermirdi ki, Üzeyir bəy Hacıbəylinin yazıları nəşr olunsun. Ədibin Sovet dövründə yazılarının 10 cildliyi hazırlanmalıydı. Ancaq onun yazıları bütöv Azərbaycanın siyasi həyatı ilə azərbaycançılıq, milli ideologiya, vətənin, xalqın və millətin taleyi ilə bağlı yazılar olduğuna görə, hətta ruslaşma siyasətini ifşa etdiyindən Azərbaycana qarşı olan təxribatları ortaya qoyması səbəbindən bir çox məqalələri Sovet dövründə 10 cildliyə daxil edilməyib. Ü.Hacıbəylinin sovetlər zamanında yalnız dörd cildliyi nəşr olunub. Digər tərəfdən, professor Şirməmməd Hüseynovun hazırladığı "Üzeyir Hacıbəylinin nəşrlərdə kənarda qoyulmuş, ixtisar və "redaktə" edilmiş əsərləri" kitabı böyük əhəmiyyət kəsb edir.

Kitabda yer alan yazılar arasında o dövrün mətbuatında senzura səbəbindən ixtisar edilən və ya ümumiyyətlə işıq üzü görməyən məqalələr var. Bu yazılar Hacıbəylinin ictimai-siyasi baxışlarını daha aydın göstərir, onun milli mədəniyyət və maarif uğrunda mübarizəsini sərt və emosional bir üslubda təqdim edir. Bu nəşrdən kənarda qalmış məqalələrdə Üzeyir bəy xalqın passivliyini, maarifin ləng inkişafını və milli dəyərlərə biganəliyi kəskin tənqid edir. Əgər sovet dönəmində oxucuya nisbətən yumşaldılmış mətnlər təqdim olunurdusa, Şirməmməd Hüseynovun toplayıb çap etdirdiyi məqalələrdə müəllifin düşüncələri bəzən daha radikal və kəskin formada ifadə olunub. Xüsusilə milli kimliyin qorunması, dil və milli musiqinin gələcək nəsillərə ötürülməsi məsələlərində Üzeyir bəy Hacıbəylinin mövqeyi olduqca prinsipial görünür.

Beləliklə, nəşrdən kənarda qalmış publisistik irsi Üzeyir bəyi yalnız musiqiçi və maarifçi deyil, həm də ictimai-siyasi proseslərə biganə qalmayan ziyalı kimi tanıdır.

Ü.Hacıbəylinin publisistikası yalnız tarixi baxımdan deyil, həm də bu günün cəmiyyəti üçün aktuallığını qoruyur və milli jurnalistikamızın inkişafında mühüm mərhələ hesab olunur.

Hər il sentyabrın 18-i Üzeyir bəyin doğum günü Milli Musiqi Günü kimi qeyd olunur. Bu, onun irsinin dövlət səviyyəsində dəyərləndirilməsinin göstəricisidir. Onun 140 illiyi münasibətilə keçirilən tədbirlər bir daha göstərir ki, Üzeyir bəy Hacıbəyli təkcə milli mədəniyyətimizin deyil, Azərbaycan jurnalistikasının inkişafında da misilsiz rol oynayıb.

**Günel Verdiyeva,**
**BDU-nun Jurnalistika fakültəsinin**
**3-cü kurs tələbəsi**